



**Artıq tarixə çevrilmiş 2019-cu il də Lerik üçün uğurlu olub. Rayon mədəniyyət mərkəzində keçirilən hesabat yığıncağında ötən ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr geniş müzakirə edilib.**

# Lerik: uğur qanadlı illər

Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun hesabat məruzəsi dinlənilib. O qeyd edib ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində rayonda yeni infrastruktur yaradılıb, təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa edilib, sahibkarlığın inkişafı yeni mərhələyə qədəm qoyub, avtomobil yolları inşa edilib, yaşayış məntəqələrinə qaz və su xətləri çəkilib, elektrik təsərrüfatı yenilənib. 2019-cu ildə rayonda əsas sahələr üzrə məhsul istehsalının həcmi xeyli artıb. Ötən il Lerikdə 1231, o cümlədən 333 daimi, 868 müvəqqəti iş yerləri yaradılıb.

Hesabat ilində də rayonda reallaşdırılan tədbirlərin əksəriyyəti sosial xarakterli olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 14, Fövqəladə Hallar Nazirliyi tərəfindən təbii fəlakət nəticəsində yaşayış evləri qəza vəziyyətinə düşmüş vətəndaşlar üçün 30 fərdi yaşayış evi inşa edilib. Yeni il ərəfəsində Lerik şəhərində inşası başa çatdırılmış 48 mənzilli, dördmərtəbəli yeni yaşayış binası tam təmirli və fərdi istilik sistemi ilə təmin olunaraq sakinlərin ixtiyarına verilib. 56 kilometrlik Lənkəran-Lerik və 22 kilometrlik Lerik-Şinəband-Orand-Nuravud-Zərdəbərə avtomobil yolunun tikintisi yekunlaşıb. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2,5 kilometrlik Blaband-Monidigah və Lüləkəran kəndinə gedən 1,5 kilometr uzunluğunda yolun asfaltlaşdırılması başa çatdırılıb.

Bildirilib ki, rayonun 53 yaşayış məntəqəsi, 2019-cu ildə isə Peştətük, Vizəzəmin və Cənginəvud kəndləri tam qazlaşdırılıb. 2020-ci il üçün rayon üzrə 10-dan çox yaşayış məntəqəsinin qazlaşdırılması nəzərdə tutulur.

Ötən il Təhsil Nazirliyinin sifarişi ilə 620 şagird yerlik 11 modul tipli, Orand və Əvilə kəndlərində 180 şagird yerlik yeni məktəb binalarının tikintisi başa çatdırılıb. 120 şagird yerlik iki modul tipli və 180 şagird yerlik Siyov kənd tam orta məktəbinin tikintisi davam etdirilir. Lerik şəhərindəki inteqrasiya təlimli, internat tipli gimnaziyanın tədris korpusunda əsaslı təmir işləri həyata keçirilir. Burada müasir tələblərə cavab verən yataqxana binasının tikintisinə başlanılıb. Piran kəndində 75 yerlik uşaq bağçasının tikintisi davam etdirilir. Noda kəndində inşa edilmiş 50 yerlik uşaq bağçası yaxın günlərdə istifadəyə veriləcək.

Lerik şəhərinə alternativ su xəttinin çəkilişi başa çatdırılıb. Şingədulan, Sors, Molalan və Geskon kəndlərinə yeni su xəttinin çəkilməsi ilə bağlı tikinti işləri davam etdirilir.

Diqqətə çatdırılıb ki, ötən il Lerik rayonunda aqrar sahədə də bir sıra uğurlar qazanılıb. Rayonun taxıl, kartof, tərəvəz sahələrində, meyvə bağlarında bol məhsul yetişdirilib. El-obanın həyatına xeyir-bərəkət gətirən torpaqdan səmərəli istifadə olunması üçün təsirli tədbirlər görülür.

Hesabat məruzəsi ətrafında müzakirələrdə rayon maliyyə idarəsinin müdiri Elman Abbasov, Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Mahmud Zahidov, Lerik Rayon Mərkəzi Xəstəxanasının baş direktoru Mübariz Ağayev, Lerik bələdiyyəsinin sədri Balaşirin Nəsirov, rayonun fəal gənci Pərviz Ağaxanlı və sahibkar Ələkbər Salayev çıxış edərək, 2019-cu ildə sosial-iqtisadi inkişaf sahəsində görülən işlərdən, mövcud problemlərdən və qarşıda duran vəzifələrdən danışıblar.

Yığıncaqda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Dəyanət Abdullayev çıxış edib. O, ölkə rəhbərinin apardığı köklü islahatlardan, Azərbaycanın dünya miqyasında önəmini artıran amillərdən, regional inkişaf proqramlarında prioritet təşkil edən layihələrin tətbiqindən danışıb, Lerikdə nəzərə çarpan tərəqqi meyllərini yüksək dəyərləndirib. Dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərinin, fevralın 9-da keçirilmiş növbədənkənar parlament seçkilərinin siyasi əhəmiyyətindən bəhs edən natiq leriklilərin mühüm ictimai-siyasi kampaniyalarda fəal iştirak etdiklərini razılıqla vurğulayıb.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti 2020.-25 fevral.- S.9.